# COP29 dünya tarixində çox xüsusi, dərin iz buraxdı – RƏY

COP29 çərçivəsində konfransın yekunlarına dair qəbul olunmuş sənədlər və qərarlar çox vacib əhəmiyyətə malikdir. Bu əhəmiyyət nəinki iqlim gündəliyi nöqteyi-nəzərdən, eyni zamanda, siyasi baxımdan özünü göstərir. Çünki indi bir çox siyasi məsələləri məhz iqlim gündəliyi müəyyənləşdirir, dünyada gedən siyasi proseslərə, həmçinin bəşəriyyətin gələcək inkişafına əsaslı dərəcədə təsir göstərir. Əvvəlkilərdən sessiyalardan fərqli olaraq, Azərbaycanda keçirilən iqlim sammiti çərçivəsində maliyyə məqsədi istiqamətində əldə olunmuş razılıqlar ondan xəbər verir ki, dünya bu iqlim gündəliyinin reallaşdırılması üçün yeni mərhələyə qədəm qoyur və Bakı iqlim məqsədi bu istiqamətdə qlobal iqlim siyasətinə öz töhfəsini verir, yeni prioritetlər formalaşdırır.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq İlqar Vəlizadə səsləndirib.

"Biz bilirik ki, 2015-ci ildə Parisdə keçirilən beynəlxalq iqlim sammiti çərçivəsində vacib sənəd qəbul olunmuşdu. Amma həmin sənəd müxtəlif səbəblərdən uzun zaman idi yerinə yetirilmirdi. Çünki inkişaf etmiş ölkələr öz vəzifələrindən – bu öhdəliyi yerinə yetirməkdən boyun qaçırır, həmin sənəddə göstərilən maliyyənin miqdarını azaltmaq istəyirdilər. Bu da inkişaf etməkdə olan ölkələrin qəzəbinə və narahatlığına səbəb olurdu. Bu, çox gözlənilən vəziyyət idi. Çünki məhz bu ölkələr, yəni, daha çox inkişaf etməkdə olan ölkələr böyük ölkələrin siyasətindən, o cümlədən iqlimə mənfi təsir göstərən fəaliyyətindən əziyyət çəkirdi. Onlar da əlbəttə ki, hüquqlarının pozulmasını istəmirdilər",- deyə politoloq əlavə edib.

Bundan başqa, inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin COP29 çərçivəsində məhz Azərbaycanın təkidi ilə 2035-ci ilədək ən azı 300 milyard ABŞ dollarına çatdırılması təmin edən qərarın qəbul olunduğunu vurğulayan İ.Vəlizadə birbaşa dövlət maliyyələşməsindən kənar fondların vasitəsilə ümumilikdə təqribən 1,3 trilyon dollar həcmində maliyyənin gələcəkdə həmin fonda köçürülməsinin inkişaf etməkdə olan ölkələrin iqlim problemlərinin həllinə daha çox yardım göstərəcəyini bildirib.

"Yeri gəlmişkən, onu da vurğulamaq lazımdır ki, bu qərarın qəbulu çox çətin maneələrlə üzləşmişdi. Çünki yanaşmalar başqa idi, müxtəlif ölkələr ayrı-ayrılıqda öz fərqli təkliflərini irəli sürürdü, bəzən bu təkliflər arasında bir-birinə zidd olanlar da olurdu və s. Beləliklə, bütün bu ölkələri eyni məqsədə çatmaq uğrunda gedən yolda konsensusa gətirmək, fikirlərini bir araya toplamaq, onlar arasında müəyyən razılıqlar əldə etmək işini təşkili müşkül məsələyə çevrilmişdi. Amma Azərbaycan dövləti bu məsuliyyətli məsələdə üzərinə düşən mühüm vəzifəni məharətlə, qətiyyətlə yerinə yetirə bildi. Əlbəttə ki, belə ağır vəziyyətdə - fikir ayrılıqlarının gərginləşməsi və dərinləşməsi fonunda ölkəmizin qətiyyət nümayiş etdirməsi misli görünməmiş dərəcədə önəmlidir. Həqiqətən də Azərbaycanın ev sahibliyi etdiyi bu konfrans dünya tarixində çox xüsusi, dərin iz buraxdı. Bunu hər kəs, hətta anti-Azərbaycan qüvvələr də başa düşür və etiraf edirlər", - deyə politoloq diqqətə çatdırıb.

**AZƏRTAC**
**2024, 29 noyabr**